UOT- 811.512.162

SAYALI SADIQOVA*

# ANLAYIŞIN MƏNALARININ TERMİNDƏ İNTERPRETASİYASI

**XÜLASƏ**

Məqalədə anlayışın mənalarının termində interpretasiyası təhlil olunmuşdur. Qeyd edilir ki, zəruri idrak vasitəsi rolu oynayan anlayışlar son nəticədə terminlərlə ifadə olunur. Ona görə də hər hansı bir predmetin məzmunu tətbiq olunarkən anlayışlar müəyyən edilir. Bu isə tədqiqatların sonrakı istiqamətlərini və məzmununu təyin edir. Başlıcası isə anlayışın əsas əlamətləri arasında həm məzmun, həm də funksional əlaqə və inkişaf mövcuddur. Bunlar elmi biliyin inkişafı prosesində müəyyən dəyişikliyə məruz qalır, dəyişilir, məna çalarlıqlarına uyğun olaraq konkretləşir. Anlayışda ifadə olunan eyni predmetin müxtəlif cəhətləri təyin edilir. Dərk olunma prosesində anlayışın mühüm əlamətləri, ən ümumilər, zəruri və mühüm olanlar, konkret olanlar aşkar edilir. İdrak prosesinin son mərhələsində anlayışın mahiyyəti formalaşaraq mövcud anlayışlardan fərqli məzmunu təyin edilir və anlayışla termin arasında münasibətlərin müəyyənləşdirilməsi məntiq və semantika ilə bağlıdır. Anlayış predmet və ona yaxın hadisəni müəyyən predmet və hadisələrdən fərqləndirməyə imkan verən əlamətlər əsasında təyin edilən fikirdir. Bununla da anlayışın mənaları dəqiq şəkildə müəyyənləşdirilməli və anlayış termində interpretasiya olunmalıdır.

***Açar sözlər:*** *terminologiya, terminləşmə, reterminləşmə, leksik sistem, semantik derivasiya.*

**Giriş:** Elmi-texniki tərəqqi, ictimai-sosial dəyişikliklər müxtəlif elm sahələrində yeni anlayışların yaranmasına səbəb olur. Hər bir elmə aid olan anlayışlar yarandığı sahədə bir sistem yaradır. Tam və bütöv bilik əldə etmək üçün hər bir konkret sistemin əsasında dayanan sistemyaradıcı əlamətin, həmin əlamətə görə müəyyənləşən əsas anlayışların dəqiq təyin edilməsi son dərəcə zəruridir. Bunların müəyyənləşdirilməsi müxtəlif bilik sahələrinin əsasını təşkil edən predmetlərin adlandırma mexanizminin təyin edilməsidir. Elm sahələrinin inkişafı, elmi idrakın qazandığı nailiyyətlərin ifadə forması üçün metodoloji aspektlərə yönəlmiş yeni tədqiqatların aparılmasına əsas verir. Məhz buna görə də yaranma xüsusiyyətlərinə görə ümumilik təşkil edən anlayışların xüsusi əlamətlərinin təyin edilməsi və onların bir-biri ilə qarşılıqlı əlaqə və təsirinin tədqiqi aktuallıq kəsb edir.

**Anlayışın dərk edilmə prosesi.** Dildə anlayışlar müəyyən hadisələr, predmetlər və s. əsasında formalaşır. Onların hər birinin özünəməxsus adları var və bu adlar müəyyən əlamətlər əsasında formalaşır. Adlar gerçəkliyi fikrən inikas etdirən formadır. Predmetlərin ayrılmaz xassələri və onlarla ad arasındakı münasibətlər anlayışları formalaşdırır. N Hüseyinli yazır: "Obyektiv gerçəklikdə predmetlər və onların ayrılmaz xassələri, xassələrin özləri arasında, predmetlərin özləri arasındakı münasibətlər adların formalaşmasının maddi əsasını təşkil edir, yəni adların predmet qiymətləri arasındakı münasibətlər müəyyənləşdirilir." (Hüseyinli N. 2003, s.334) Adların mahiyyət etibarı ilə düzgün olması üçün anlayışla bağlı reallığı düzgün əks etdirməlidir. Anlayışın idrak prosesi təfəkkürün mahiyyətlər iyerarxiyası boyunca yüksələn prosesdir. Bu prosesdə anlayış dərk edilir, anlayışlar sistemində onu ayıran, fərqləndirən xüsusiyyətlər təfəkkür vasitəsi ilə təyin edilir. İdrakın düşüncəyə əsaslanan mərhələsində əşya və hadisələrin mahiyyətinə nüfuz edilir, alınmış informasiyalar sistemləşdirilərək təfəkkürə ötürülür. Bu proses elmin həmin anlayışla bağlı verdiyi son nəticəyə əsaslanır. N. Hüseyinli yazır: "Təfəkkür abstraksiyaları sintez edərək özündə konkreti yaradır və bu əsasda şeylərin dərinliklərində gizlənmiş mahiyyətlərini aşkar edir. Bu prosesdə abstraktdan konkretə yüksəlmə metodundan istifadə edilir. Təfəkkürdəki konkretlə real mövcud olan konkret arasında ciddi fərqlər vardır. Real mövcud olan konkretlər əsasında təfəkkür özünün daxili qanunları əsasında, bir sıra konkretləri yaratmaq gücünə malik olur." (Hüseyinli: 2003, s.358) Deməli, dərk olunma prosesində anlayışın mühüm əlamətləri, ən ümumilər, zəruri və mühüm olanlar, konkret olanlar aşkar edilir. İdrak prosesinin son mərhələsində anlayışın mahiyyəti formala-

* *Nəsimi adına Dilçilik İnstitutu, Terminologiya şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor; sayalisadigova@yahoo.com*

şaraq mövcud anlayışlardan fərqli məzmunu təyin edilir. Elmi fikirlərə, eksperimentlərə, irəli sürülən ideyalara əsaslanaraq yeni bilik əldə edilir. Bu biliyin əsasını, nüvəsini anlayışlar haqqında biliklər təşkil edir. Biliklər əsasında anlayışlar arasında münasibətlər qurulur, hökmlərə əsaslanaraq emprik-nəzəri xarakteri açılır. Anlayışı təyin edən adın məzmunu və həcmi arasındakı əlaqə təyin edilir. Ona görə də "idrak fəaliyyətində xüsusi emprik-nəzəri anlayışlar arasında mövcud olan zəruri təkrarlanan qanunauyğun əlaqələr tapılmalıdır. Bu prosesdə ümumi empirik-nəzəri anlayışlar formalaşır. Deməli, xüsusi empirik-nəzəri anlayışlar və onlar arasındakı qarşılıqlı əlaqə ümumi emprik-nəzəri anlayışların formalaşmasının zəruri ilkin şərtlərindəndir."(Hüseyinli: 2003, s.360.) Bu fikirlər göstərir ki, anlayışın yaranması və onun adla əlaqəsi, elmi dilin vahidlərinin adlanması üçün zəruri ilkin şərtlərdir və bunlar bir-biri ilə əlaqədardır. Anlayışların əsasında elmi biliklər dayanır. Obyektiv gerçəklikdə hadisələr və proseslər bir-biri ilə qarşılıqlı əlaqədə olduğu kimi, onları əks etdirən bilik formalarının təzahür forması olan elm sahələri də bir-biri ilə qarşılıqlı əlaqədə olur. Bu əlaqələri yaradan, sahələr arasındakı qarşılıqlı münasibətlər yaradan inteqrativ xarakterə malik olan anlayışlardır. Anlayışları konkret olaraq bir sahə ilə bağlı təyin etmək üçün fərdi, keçici əlamətlər deyil, mühüm, ümumi qanunauyğunluqları nəzərə alınması zərurudir. Bu prosesdə əşya, hadisə haqqında, onların mahiyyətini anlamaq, biliyə nail olmaq üçün müxtəlif elmi biliklərin verdiyi məlumatlara yanaşı, əsas anlayışlar arasındakı əlaqə də müəyyənləşdirilir. Əlaqələrdən çıxış edərək konkret anlayışlar müəyyənləşdirilir. Elmi abstraksiyalar anlayışı xüsusiləşdirir və konkretləşdirir. Anlayışların sistemləşdirilməsində əsas məqam onun müəyyən sahədə anlayışın ifadəsinə xidmət etməsi götürülür. Bu sistemdə yer alan hər bir anlayış həm məzmun, həm də funksional göstəricilərinə görə fərqlənir və yeni yaranan anlayış üçün zəmin olur. Anlayışın dəqiqliyi onun sabitliyini şərtləndirir. Bu baxımdan anlayışlar obyektiv aləmin idrakı üçün mühüm olan xassələrini əlaqə və münasibətlərini ümumiləşdirilmiş formada inikas etdirərək elmin əsas məzmununu təşkil edir. Elmin inkişafı idrak vasitəsi olan anlayışların dərk edilməsi prosesi ilə bağlıdır. Hər bir elm sahəsi inkişaf edərkən onunla bağlı yaranan anlayışları elmi biliklərdən istifadə etməklə təyin edir. Elmi biliklər qarşısında qoyulan problemlər mahiyyət etibarı ilə bir-birini tamamlayır. Qarşılıqlı əlaqələr ayrı-ayrı elm sahələri ilə bağlı yaranan anlayışlarla yanaşı, fundamental metodlardan istifadə etməklə inkişaf edir. Elm sahələrinin inkişafı birinci növbədə gerçəkliyi əks etdirən fikir formalarının yaranması ilə bağlıdır. Müşahidələr, eksperimentlər, cəmiyyətdə baş verən hadisələr müəyyən bir anlayış haqqında fikir formalaşdırır. İdrak prosesi fikir formalarının koordinasiya və subordinasiya əlaqələridir. Bu əlaqələr idrakın müxtəlif mərhələlərində elmin formalaşmasının və inkişafının əsasında dayanır. İdrak prosesində alınan biliklər obyektiv məzmuna malik olur, yəni artıq real olan hadisə və mahiyyətin inikası olan bilik arasında adekvatlıq yaranır. Mahiyyət idrak vasitəsi ilə dərk edilir, onların daxili təbiəti anlayışın məzmununu təşkil edir. Elm inkişafda olan bir proses olduğuna görə yeni faktlar bilik faktına çevrilir və anlayışın məzmunu genişlənir. Anlayışın məzmunu dəqiqləşdikcə onun adlanması zərurəti yaranır. İdrak prosesi adın verilməsi üçün alınan informasiyaların əsaslarını təyin edir, fikirləri aydınlaşdıraraq təfəkkürə ötürür. Yaranan adların özünüdərki reallıqla, digər tərəfdən isə təfəkkürlə əlaqəlidir. Yəni ad elmi biliklər əsasında yaradılır. Elm isə adlardakı fikirlərə, irəli sürülən ideyalara əsaslanaraq yeni biliklərlə zənginləşir. Ona görə də elmdə ayrıcanı dərk etmək üçün təkcələr, xüsusilər kifayət deyildir. Xüsusi anlayışlar ümumi anlayışların formalaşmasının zəruri ilkin şərtlərindəndir. Məsələn, dilçilikdə nəzəri fikirlərin inkişafı fonologiyanın, leksikologiyanın, morfologiyanın, semasiologiyanın yaranmasının əsasını qoymuşdur. Hər bir sahənin nəzəri biliklərinin əsasını nəzəri fikirlər təşkil edir və bunun əsasında müxtəlif elm sahələrinin hər birinin anlayışları formalaşmışdır. Bu prosesdə elm sahələri qarşılıqlı əlaqədə inkişaf edir. Eləcə də elmin müxtəlif sahələrində də qarşılıqlı əlaqə mövcuddur. Təbii ki, bu əlaqələr anlayışlar əsasında qurulur. Hər bir anlayış elmi biliyin ümumi inkişafı prosesində zəruri tələbatın nəticəsi kimi həmin məntiqi iyerarxiyanın pilləsi olaraq yaranır. Anlayışların əsas əlamətlərinin təyini adların yaranması ilə nəticələnir.

**Anlayışların ifadə forması terminlərdir**. Anlayışların düzgün təyini yeni adların yaranmasına səbəb olur. Dildə yaranan yeni adların mühüm bir hissəsini terminlər təşkil edir. Bu baxımdan adları ifadə edən terminləri müxtəlif qruplara ayırmaq olar: müəyyən abstrakt anlayışları ifadə edən terminlər; kateqoriyaları ifadə edən terminlər; hadisələri ifadə edən terminlər; predmetləri ifadə edən terminlər; Terminlərin yaranması üçün, mövcudluğu üçün birinci şərt kimi hadisənin, predmetin və s. mövcudluğu zəruridir. Anlayışın dilin terminoloji sistemində necə əks olunması, milli dilin potensial imkanları əsasında təyin etmək məsələsi öz aktuallığı ilə seçilir. Müxtəlif anlayışlar öz optimal ifadəsini dilin formalarında, dilin terminoloji strukturunda tapır. Dil formaları, vasitələri əsasında anlayışın dəqiq adı maksimal şəkildə verilir, yaranan forma məzmun və mənanın mahiyyətini açıb göstərir. Anlayış və terminlərin tarixi inkişafının tədqiqi bu prosesin qarşılıqlı əlaqəsini üzə çıxarır, müəyyən əlamətlər müəyyənləşdirilərək sonda terminoloji vahidlər sırasına daxil olur, onları dildə və nitqdə funksionallaşdırır. Müəyyən predmetin adının dilin terminologiyasının əsas fondunda yerləşməsi, həmin istiqamətdə olan inkişafı özündə əks etdirir. Anlayışların adlandırılması, müəyyən elm sahələrində işləklik qazanması uzunmüddətli prosesdir. Anlayışlar və onların nominasiyası, adlandırılması, onların yeni mənası, bir-birinə uyğun gələn adlandırma və məna, bunların qarşılıqlı əlaqəsi yeni terminlərin yaranma prosesi üçün başlıca şərtdir. Bu proses dinamik inkişafda olan cəmiyyətdə baş verən hadisələrin anlayışlarda əksi ilə nəticələnir. Yaranan anlayışların dərki bir tərəfdən də sözün, terminin mahiyyətini təyin edir. Bunların sistem-struktur təhlili eyni zamanda terminlərin semantik təbiətinin də müəyyənləşməsinə gətirib çıxarır. Həmin terminosistemdə mənanın daxili münasibətləri üzə çıxır. Anlayışların terminləşməsi (semantik konversiya, ümumişlək sözlərin terminləşməsi, məişət sözlərinin terminləşməsi, mənanın xüsusiləşməsi və s.) prosesi çərçivəsində onun işlənmə sahələri, terminin ayrı-ayrı mənaları, təyinetmə halları ortaya çıxır. Terminlərin inkişaf qanunauyğunluqları və sabitləşməsi, semantik münasibətlərin xarakteri, anlayışla termin arasındakı əlaqə ilə bağlıdır. Bunlar arasındakı bağlılıq müxtəlif istiqamətlərdə diqqəti cəlb edir. Yeni tədqiqat istiqamətlərindən biri ümumən termin anlayış əlaqəsini koqnitiv istiqamətdə müəyyənləşdirməkdir. Bu istiqamət struktur işarələrlə dilin ifadə vasitələri arasında münasibəti müxtəlif cəhətdən təyin edir: 1. konseptual cəhətdən modelləşdirir və əsas anlayışları üzə çıxarır; 2. əsas anlayışlar arasındakı məna əlaqələrini təyin edir; 3. terminosistemdə anlayışlar arasındakı əlaqəni əks etdirir; 4. anlayışlar və onların arasında əlaqənin dil formaları ilə ifadəsini üzə çıxarır; 5. sxematik formaları terminoloji sistemə gətirir. Bu sistemdə terminlərinin anlayışları necə ifadə etməsi, iyerarxik strukturun dil vasitələri, hər bir anlayışın əsas adları, koqnitiv modelləri bloklaşdırılır, terminyaradıcı modellər bloklarda yerləşdirilir. Bu modellərdə terminyaradıcılığına koqnitiv nöqteyi-nəzərdən yanaşılır. V.F.Novodranonun fikrincə, "tədqiqatın koqnitiv aspekti müasir linqvistika üçün xarakterikdir, xüsusən də terminologiya üçün maraqlıdır, bu zaman hər termin dəqiq dərk edilir, dəqiq struktur məna müəyyənləşir" (Новодранова В.Ф. 2000. с.89).

Belə yanaşma sözlərdən fərqli olaraq terminləri diferensiallaşdırmaq, fərqləndirmək xüsusiyyətlərini müəyyənləşdirir. Məsələn, "zaman" anlayışı təfəkkürlə bağlı yaranan sözdür. Bu söz getdikcə yeni məna ifadə etmişdir. Bu məna isə sözün ifadə etdiyi məna çalarlarına uyğun olaraq formalaşmışdır. Lakin zaman anlayışı əvvəlki mənasını saxlamaqla həm dilçilikdə, həm də fəlsəfədə xüsusiləşərək termin kimi işlənmişdir. Dilçilikdə qrammatik ifadə vasitələrinin tədqiqində çox vaxt zamana fəlsəfi tərəfdən, ən yaxşı halda isə təkcə semantik yöndən yanaşılmışdır. A. Axundov yazır: "Qrammatika özündən zaman yaratmır, o yalnız insan şüurunda əks olunan obyektiv zamanı dildə xüsusi əlamətləri ilə qeyd edir və bununla yanaşı onu xeyli konkretləşdirir" (Axundov:1961, s. 4).

Deməli, obyektiv fəlsəfənin qanun və kateqoriyaları dilin vasitələri ilə təzahür olunur. Məsələn, obyektiv zaman kateqoriyası fəlsəfi zamandır və bu anlayışlar dildə qrammatik zamanla ifadə olunur. Bununla da "zaman" termini fəlsəfə və qrammatikada işlənməklə bizdən asılı olmayaraq obyektiv aləmdə mövcud olan zamanın insan təfəkküründəki təzahürünün dildə ifadə olunması faktını gerçəkləşdirmişdir. Yəni, koqnitiv-kommunikativ yanaşma terminin anlam, dərketmə xüsusiyyətlərini interpreta-

siya edir. İnsan fəaliyyətinin kateqoriyallaşmasının vasitələri, təfəkkürün verballaşması şərh olunur. Bu sahədə iki koqnitiv istiqamət: a) semantik prototip; b) semantik sterotip istiqamətləri daha çox müşahidə edilir. Elmi dilin əsas vahidləri hesab edilən terminlərin məntiqi, linqvistik və nəzəri-tarixi aspektləri müəyyənləşdirilir. Bu zaman bir əşyanın konkret, fərdi əlamətləri əsas götürülür. Məntiqi cəhətdən yaxınlaşsaq terminlərin spesifikası onların əşyaları, prosesləri, obyektiv gerçəkliyin hadisələrini və onlara aid anlayışları adlandırmaqdır. Terminlərin elmi vahid olaraq dominant mahiyyəti də bundan ibarətdir. Bu isə terminlərin nominativ funksiyasından əlavə, definitiv funksiyasını da gerçəkləşdirmişdir. V.V.Vinoqradov yazır: "Termin iki funksiyanı – nominativ və definitiv funksiyaları, söz isə yalnız nominativ funksiyanı yerinə yetirir". (Виноградов: 1947, c. 12-13)

Hər bir terminin yaranma prosesi müvafiq anlayışları ifadə etməsi, funksiyası çərçivəsində təyin olunur. Qeyd olunan terminlər də adi sözlərdən seçilir, definitiv xüsusiyyət kəsb edir. Termin semantik cəhətdən digər leksik vahidlərdən fərqlənir. Termin bir məna daşıyır, başqa mənada işləndikdə isə termin olmaq hüququnu itirir. Belə vəziyyətdə həmin termin-söz ya başqa sahə üzrə termin olur, ya da adi ümumişlək sözə çevrilir. Həmişə konkret terminlə konkret anlayış, mücərrəd terminlə mücərrəd anlayış arasında əlaqə olur. Terminlər anlayışları ifadə edir. Hər bir elm sahəsi anlayışlardan yaranan biliklər sistemidir. Anlayış insan ağlının gerçəklikdəki proseslərin dərk edilmə prosesinin nəticəsidir. Müəyyən anlayış mənaları ilə əlaqədar olan terminlər müvafiq anlayışları təyin edir. Anlayışlar təfəkkürün elementi olmaqla materiyanın dərk olunma, ətraf aləmi dərketmə vasitəsidir və müəyyən sahəyə daxil olan məfhumların əsas əlamətlərini əks etdirir. Terminin mənasında həmişə əşya, anlayış mənası dayanır. Əslində termin həm anlayışın yaranması vasitəsi, həm də onun ifadə formasıdır. Terminlə anlayış eyni vaxtda, bir-biri ilə sıx qarşılıqlı əlaqə şəraitində meydana gəlir. Terminlə anlayış arasında hadisə və mahiyyət, forma və məzmun əlaqəsi mövcuddur. Ona görə də hər bir terminə məxsus olan spesifik əlamətləri müəyyən etməzdən əvvəl, ümumi anlayışın, o cümlədən anlayışların özünün mahiyyətini, anlayışla ad, termin arasındakı əlaqə dəqiqləşdirilir. Şübhəsiz ki, hər iki cəhət bir-biri ilə əlaqədardır. Anlayışla termin arasında münasibətlərin müəyyənləşdirilməsi məntiq və semantika ilə bağlıdır. Anlayış "predmet və ona yaxın hadisəni müəyyən predmet və hadisələrdən fərqləndirməyə imkan verən əlamətlər əsasında təyin edilən fikirdir. Anlayışın formalaşması prosesində ümumiləşmə, xüsusiləşmə və abstraklaşdırmadan istifadə olunur. Anlayışda ifadəsini tapmış əlamətlər öyrənilən predmetin, yaxud hadisənin xassələrini və onlar arasındakı münasibətləri əks etdirir." (Sadıqova: 2019, s.53) Anlayışın müəyyənləşdirilməsində şeylər, proseslər, hal, əlamət, kəmiyyət və obyektiv reallığın digər münasibətləri predmet ola bilər. Bununla yanaşı, diqqətdə saxlanılmalıdır ki, terminoloji sistemdə hər hansı anlayış yox, təkcə müəyyən terminlə təsbit edilən, elmin uyğun sahəsinə daxil olan anlayış əsas götürülməlidir. Anlayışlar obyektiv reallığın predmet və hadisələrinin ümumi və əhəmiyyətli əlamətlərinin ifadə edildiyi fikirlərin toplusudur. Bu toplu anlayışlar sistemini yaradır. Dildə yaranan anlayışların məzmunu isə əlamətlərin toplusudur və anlayışlarının həcminə həmin anlayışlar tərəfindən əhatələnmiş predmet və hadisələr daxil edilir. Hər bir anlayış insanın təfəkkür forması olub, şeylərin ümumi əlamətlərini bildirir. "Formal məntiq, anlayışa gerçəkliklə əlaqədar olmayaraq, formal surətdə yanaşır. Materialist dialektika, əksinə olaraq, anlayışı gerçəklikdən ayırmır, materialist dialektika bunu əsas tutur ki, mənasız anlayışlar deyil, düzgün anlayışlar gerçəkliyi əks etdirir və bu yaşayışın mühüm, ən əhəmiyyətli əlamətlərini ümumiləşdirir" (Məmmədov:1978, s.15).

Elmdə əsas anlayışların vəhdəti anlayışlar sistemini yaradır. Müasir elmi idrakın inkişafında ümumelmi anlayışlar dayanır. Anlayışları aşağıdakı qruplara ayırmaq olar: 1. Yalnız xüsusi elm sahələrində işlənən anlayışlar. 2. Bir sıra elm sahələrində işlənən ümumi anlayışlar. Bu istiqamət və məzmununa uyğun olaraq elmdə terminlər də xüsusi və ümumi olaraq iki qrupa ayırmaq olar. Ümumelmi terminlər xüsusi elmi anlayışlarla fəlsəfi kateqoriyaların qarşılıqlı əlaqəsi əsasında yaranan terminlərdir. Belə terminlər xüsusi elmlərin məzmun və mahiyyətinin tam açılması üçün şərait yaradır, obyektiv aləmin dərkində onların rolunu düzgün başa düşməyə imkan verir, yəni ümumi terminlər xü-

susi elmi anlayışlarla əlaqələndirici həlqə rolunu oynayır. Elmi- nəzəri biliklər terminlər vasitəsi ilə həyata keçirilir. Konkret elmi biliyin inkişafının nəticəsi kimi yaranan terminlər xüsusi elmi bilik sahələrinə təsirinin realizə olunmasında fəal iştirak edir. Bu baxımdan terminlə anlayışın qarşılıqlı əlaqəsi mürəkkəb və çoxcəhətlidir.

Ümumelmi anlayışlar elmlərin qarşılıqlı əlaqəsinə əsaslanır və bütün elmlərdə tam tətbiq olunaraq məntiqi-qneseoloji universallıq qazanır. Belə anlayışlar xüsusi elmi və ümumelmi anlayışların arasında yerləşir və müxtəlif ümumilik dərəcəsinə malikdir. Ümumelmi anlayışlara uyğun olaraq terminləri də iki qrupa ayırmaq olar: 1. Hər bir elmə məxsus terminlər. Yəni müəyyən elm sahələrinin predmetinə uyğun olaraq bir sahədə işlənən terminlər nəzərdə tutulur. Məsələn, Dilçilikdə işlənən "mənaca, məzmunca bir-birinə yaxın olan, eyni və oxşar denotatı ifadə edən, lakin formaca fərqli olan sözlərə sinonim sözlər deyilir. Yaxud, hər hansı bir məfhum bir sözlə deyil, bir neçə müxtəlif sözlə ifadə edilir; Bir-biri ilə əlaqəsi olmayan, məna əlaqəsini itirmiş məfhumları ifadə edən, formaca eyni, mənaca müxtəlif olan leksik vahidlərə omonim sözlər deyilir. Omonim sözlər linqvistik hadisə olub, dilin leksik və qrammatik xüsusiyyətlərini birləşdirən, öz səs tərkibinə görə dilin inkişaf dövrlərində müəyyən oxşarlığı olan, mənaca müxtəlif sözlərdir (Sadıqova: 2019, s.746, s. 911). Bu terminlər yalnız dilçiliklə bağlıdır, semasiologiyanın əsas anlayışlarındandır. Eləcə də fizika, riyaziyyat, kimya və s. sahələrin hər birinə məxsus xüsusi terminləri mövcuddur. Bununla yanaşı elə anlayışlar var ki, bir çox elm sahələrində işlənir və bunları ortaq terminlər adlandırmaq olar. Bir neçə elm sahəsində ümumi olaraq işlənən terminlərə ortaq terminlər deyilir. Məsələn, "hərəkət" sözü ümumişlək söz kimi işləklik qazanmaqla yanaşı ümumi termin kimi bir sıra elm sahələrində işlənir. "Hərəkət" termini ərəb mənşəli olub, bir sıra mənalarla yanaşı fəlsəfi mənada "materiyanın varlıq forması, onun ayrılmaz xassəsi; maddi aləmin fasiləsiz dəyişmə və inkişaf prosesi" mənasında; "təsəvvür" termini həm fəlsəfi, həm də psixoloji anlamda "olmuş hadisəni xəyalına gətirmə, canlandırma" (təsəvvür prosesi.) // Əvvəllər hiss orqanlarına təsir etmiş, indi isə bilavasitə təsir etməyən, lakin "xəyalda əks olunan əşya və hadisələrin konkret surəti" (ADİL: 1987. s.174.) mənasında işlənir. "Dialektik fəlsəfədə 5 hərəkət formasından söhbət gedir. Bunlardan birincisi, mexaniki hərəkət formasıdır. Cisimlərin bir-birinə nisbətən məkanca yerdəyişməsidir. İkincisi, fizika tərəfindən öyrənilən elektromaqnit prosesləri, o cümlədən habelə işıq hadisələri kimi hərəkət formaları qrupudur, qarşılıqlı cazibə təsirləridir, atom daxilində və nüvə daxilində olan proseslərin və hissəciklərin çevrilməsidir. Üçüncü, bioloji hərəkət formasıdır (üzvi həyatdır). Beşincisi, ictimai hərəkət formasıdır (ictimai proseslərdir, bəşər cəmiyyətinin tarixidir" (Rüstəmov: 1997, s. 235). Eləcə də "adekvat" – bərabər, müvafiq, uyğun, adekvat idrak predmetin və ya hadisənin bütün ən mühüm əlamətlərini dürüst əks etdirən idrakdır. Belə terminlər müxtəlif elm sahələrində eyni, bəzən də müxtəlif funksiyanı yerinə yetirir. Xüsusilə, fəlsəfə terminlərinin bəhs etdiyimiz kimi işlənmə sahələri genişdir. Məsələn, "analiz" və "sintez" terminləri müxtəlif elm sahələrində istifadə olunur. Lakin fəlsəfədəki məna aşağıdakı kimi göstərilir: 1) analiz (yunanca parçalama) - predmeti və hadisəni onun tərkibində olan sadə hissələrə ayırma. 2) Sintez (yunanca tərtib etmə) - predmetin və ya hadisənin hissələrini birləşdirib bütöv etmək, predmetə vəhdət şəklində baxmaq, sadədən mürəkkəbə doğru getmək. (Məmmədov: 1978, s. 149)

Belə terminlər daha geniş məna ifadə etdiyi üçün bir sıra sahələrdə işlənir. Bütün bu mənalar müəyyən anlayışların elmlər arasında daşıdığı funksiya ilə bağlıdır. Bu baxımdan ümumelmi anlayışlar xarici aləmin predmet və hadisələri bir-biri ilə qarşılıqlı əlaqədədir. Cünki elmi anlayışlar müəyyən nəzəri tədqiqatın nəticələrini özündə təcəssüm etdirməklə yalnız həmin nəzəriyyə çərçivəsində mövcud ola bilir. Əgər hər hansı anlayış nəzəriyyələr çərçivəsində müəyyən anlayışı ifadə etmirsə ümumelmi anlayış funksiyasını yerinə yetirə bilməz. Ümumelmi anlayışlar dedikdə ən azı üç və daha çox elmlərdə işlənən anlayışlar nəzərdə tutulur. Məsələn, fransız mənşəli "subyekt", "obyekt", "individum", "indivudal", "absolyut", "substansiya", "konkret", "universal", "abstrak", "rasional", "rasionalizm", "adekvat" və s. terminlər bir çox sahələrdə işlənir. Elmlərin inteqrasiyası və biliklərin sintezi, onlar arasında qarşılıqlı əlaqə elmin inkişafının fundamental qanunauyğun-

luqlarından biridir. Elmin inkişafı nəticəsində yaranan ümumelmi anlayışlar zəruri idrak vasitəsi rolu oynayır. Zəruri idrak vasitəsi rolu oynayan anlayışlar isə son nəticədə terminlərlə ifadə olunur. Anlayışın ifadəsi kimi yaranan terminlər də müəyyən elm sahələrində xüsusiləşir. Ona görə də hər hansı bir predmetin məzmunu tətbiq olunarkən anlayışlar müəyyən edilir. Bu isə tədqiqatların sonrakı istiqamətlərini və məzmununu təyin edir. Başlıcası isə terminlə anlayış arasında həm məzmun, həm də funksional əlaqə və inkişaf mövcuddur. Bunlar elmi biliyin inkişafı prosesində müəyyən dəyişikliyə məruz qalır, dəyişilir, məna çalarlıqlarına uyğun olaraq konkretləşir.

***Nəticə:*** Anlayışda ifadə olunan eyni predmetin müxtəlif cəhətləri ifadə edilir. Bu təyinetmədə, məzmun termini – sistemin bütün xassələri, hərəkətləri ilə birlikdə götürülmüş elementlərinin məcmusu kimi definisiya olunur. Forma termini isə – sistemin elementlərinin və onlara xas hərəkətlərin təşkili kimi izah olunur. Dildə forma anlayış-termini elementlərin daxili və xarici əlaqələri ilə xarakterizə olunur. Elmlərin inkişafı dili anlamaq, idrak (dərketmə) prosesi ilə sıx şəkildə bağlayır. Dünyada kateqoriyallaşma və konseptuallaşma hadisələrini interpretasiya edir. Terminin mənalarına anlayışın dərkolunma prosesi ilə əlaqədə yanaşmaq lazımdır. İnsanın fikri, zehni fəaliyyəti onun dərketmə imkanları ilə əlaqədardır. Bu əlaqələrin müəyyənləşdirilməsi elmi dilin vahidlərinin adlandırılma prinsiplərinin düzgün seçilməsində oriyentir rolunu oynayır. Elmin bütün sahələri istər struktur, istərsə də funksional baxımdan sistem və alt sistem kimi qiymətləndirildiyinə görə onu təşkil edən sistemin mexanizmində anlayışla adlar arasındakı subordinasiya əlaqələri əsas götürülməlidir. Bununla da anlayışın mənaları dəqiq şəkildə müəyyənləşdirilməli və anlayış termində interpretasiya olunmalıdır.

## ƏDƏBİYYAT

1. Axundov A. (1961). Feilin zamanları, Bakı, ADU nəşri, 165 səh.

2. Azərbaycan dilinin izahlı lüğəti. (1987). IV c, 1987,599 səh.

3. RÜstəmov İ. (1997). Fəlsəfə ensiklopedik lüğəti Bakı, “Azərbaycan Ensiklopediyası”, 735 səh

4. Новодранова В.Ф. (2000). Когнитивные науки и терминология. / Научно- техническая терминология.. Сб. Москва. вып 2, 289 с..

5. Hüseyinli N. (2003). Təfəkkürün anlayış -kateqoriyalar aparatı: qnoseoloji və metodoloji təhlil. Bakı, “Sabah”, 488 səh.

6. Məmmədov Z. (1978). Azərbaycanda XIX-XX əsrlərdə fəlsəfi fikir, Bakı,356səh

7 Sadıqova S.A, Novruzova S. və s. (2019). İzahlı dilçilik terminləri lüğəti, Bakı, 1200 səh.

8. Виноградов В.В. Русский язык// Вестник МГУ, *1947*, № 7, 229 с.

**Sayali SADIGOVA**

## INTERPRETATION OF THE MEANING OF THE CONCEPT IN TERM

## SUMMARY

The article analyzes the interpretation of the meaning of the concept in term. Concepts that play the role of a necessary means of cognition are ultimately expressed in terms. Terms that appear as expressions of a concept also specialize in certain fields of science. Therefore, concepts are defined when applying the content of any subject. This determines the next direction and content of research. Most importantly, there is both content and functional connection and development between the term and the concept. In the process of development of scientific knowledge, they undergo certain changes, variation, and concretize in accordance with the shades of meaning. Different aspects of the same subject are defined in the concept. According to this load, the term content is defined as a set of elements taken together with all the properties and actions of the system. The term form is interpreted as the organization of the elements of the system and their inherent actions. In language, the concept of the form is characterized by the internal and external relations of the elements.

***Keywords:*** *terminology, termination, retermination, lexical system, semantic derivation.*

**Саялы САДЫГОВА**

# ИНТЕРПРЕТАЦИЯ СМЫСЛ И ЗНАЧЕНИЕ ПОНЯТИЙ В ТЕРМИНАХ

## РЕЗЮМЕ

В статье анализируются интерпретация смысл и значение понятий в терминах. Отмечаются что, отображающейся в терминах понятия, по сути являются средством познания. Поэтому при исследование предмета в первую очередь должна быть точно идентифицирована понятия. Исходя из этого определяются дальнейшие направления и задачи исследований. Это важно по той причине, что, среди основных свойств понятий, относящихся к ее сущности и развития, имеются функциональные связи. В процессе углубления научного познания, они подвергаются к некоторым изменениям, конкретизирующие смысловые оттенки понятий. В процессе познания обнаружуется, самые важные, конкретные и общие, необходимые свойства понятия. На последнем этапе в процессе познания, формируются отличные от других, сущность понятия. Взаимоотношения и между понятия и термина связано с логикой и семантикой. Понятия, это -смысл, определяющийся предметом и близкими к нему событиями, которые и отличают ее, от других подобных. Поэтому полагаем что, смысловые оттенки понятий должна определятся точно и понятия должна быть интерпретирована в термине.

***Ключевые слова: терминология, термин, ретерминация, лексическая система, семантическое происхождение.***